***"SOCAR Türkiyə"nin Azərbaycan jurnalistləri üçün ənənəyə çevrilməkdə olan media turu 2020-ci ildə COVİD-19 pandemiyasının daha da genişləndiyi bir dövrə təsadüf etdiyindən reallaşmadı. Lakin qardaş Türkiyə iqtisadiyyatının sənaye nəhənginə çevrilmiş Azərbaycan şirkəti bu boşluğu doldurmaq üçün müasir texnolgiyaların imkanlarından istifadə edərək, media nümayəndələrinin iştirakı ilə geniş onlayn mətbuat konfransı keçirdi. Bu təqdimatda təbii ki, şirkətin 2020-ci il fəaliyyətinin əsas nəticələri və perspektivdə duran vəzifələr haqqında ictimaiyyəti maraqlandıran suallara qismən cavab verilsə də, jurnalistləri düşündürən məsələlərin kifayət qədər çox olması və vaxt məhdudluğu üzündən əvvəlki səmərəni vermədi.***

# "SOCAR Türkiyə" sənaye nəhənginə çevrilir





Bu il noyabrın 30-da isə "SOCAR Türkiyə"nin 2021-ci ildəki fəaliyyətinin nəticələrini diqqətə çatdırmaq və ölkə ictimaiyyətini maraqlandıran suallara aydınlıq gətirmək üçün pandemiyanın ciddi şərtlərinə əməl etməklə Azərbaycan jurnalistlərinin geniş tərkibdə media turuna qərar verildi. Səfər dünyanın görüş nöqtəsi olan ecazkar İstanbuldan başladı. "SOCAR Türkiyə" təmsilçiləri bizi nə qədər doğma qarşılasalar da, İstanbula hücum çəkən qasırğa bütün qonaqlar kimi bizi də sınağa çəkmək istədi. Lakin doğma məmləkətdə belə sınaqlar elə böyük problemlər yaratmır.

Səfərin ilk günü istirahətə və təbii ki, COVID–19-a qarşı önləyici tədbirlərə ayrıldığı üçün ilk işimiz PSR testi vermək və nəticələri gözləmək oldu. Axşama yaxın artıq məlumat verildi ki, testin nəticələri mənfi olduğu üçün "SOCAR Türkiyə"nin baş ofisinə girişlə bağlı heç birimizin problemi olmayacaq. Dekabrın 1-də baş ofisin geniş foyesində qonaq jurnalistlər üçün təşkil edilən görüşdə "SOCAR Turkiyə" şirkətinin Baş icraçı direktoru Zaur Qəhrəmanov şəxsən özü iştirak etdi və şirkətin uğurları, fəaliyyət perspektivləri barədə məlumatlarla yanaşı, bizi maraqlandıran suallara da özü cavab verdi.

Baç icraçı direktor əvvəlcə ötən il Azərbaycan xalqının qazandığı Qarabağ Zəfəri ilə bağlı hamımızı təbrik edərək bildirdi ki, onlar da bu müddət ərzində iqtisadi "cəbhədə" bu qələbəyə öz töhfələrini verməyə çalışıblar və buna nə qədər nail olduqlarını əldə etdikləri nəticələr aydın göstərir. Zaur Qəhrəmanov daha sonra bildirdi ki, dünyanın ən qədim neft istehsalçıları arasında məxsusi yeri olan Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR hazırda Türkiyənin ən böyük xarici investorudur. Azərbaycan şirkəti 2008-ci ildə Türkiyənin Özəlləşdirmə İdarəsindən "Petkim" neft-kimya kompleksinin alınması ilə fəaliyyətə başlayaraq, indiyədək "SOCAR Terminal", "Petkim", STAR Neft Emalı Zavodu və TANAP daxil olmaqla, bu sahələrə yatırdığı investisiyanın həcmi 16,5 milyard dolları keçib.

Layihələr üzrə investisiya xərclərinə gəldikdə isə natiq onları belə təsnif etdi: STAR Neft Emalı Zavodu 6,3 milyard dollar, Depolama 600 milyon dollar, SOCAR Konteyner Terminalı 400 milyon dollar, "Petkim" neft kimya-kompleksinin özəlləşdirməsi 2 milyard 40 milyon dollar və əlavə olaraq hər il təxminən 100 milyon dollar olmaqla ümumilikdə 1 milyard dollar, TANAP 6,5 milyard dollar investisiya qoyulub.

Baş icraçı direktor çıxışının əvvəlindən rəhbərlik etdiyi şirkətin son illərdə qardaş ölkədə bir çox ilklərə imza atdığını xüsusi qeyd edərək vurğuladı ki, Türkiyədə "SOCAR Türkiyə" Əliağa yarımadasındakı bütün törəmə şirkətlərini əhatə edən ərazi üçün "Xüsusi Sənaye Bölgəsi" adını alan ilk şirkət olub. Həmçinin "SOCAR Türkiyə" hazırda bu ölkənin ən böyük üç holdinqindən biridir. Hazırda şirkətin işçilərinin sayı təqribən 5 min 200 nəfərdir, subpodratçılar ilə birlikdə yaradılan iş yerlərinin sayı isə 10 mini keçir.

Zaur Qəhrəmanov əlavə etdi ki, Alman enerji şirkəti EWE AG-nin Türkiyədəki fəaliyyətlərini idarə edən "EWE Turkey Holding" və törəmə şirkətləri 2019-cu il iyunun 17-də "SOCAR Türkiyə" tərəfindən satın alınıb. Bu tarixdən etibarən Bursa və Kayseridə qaz paylayan "Bursagaz" və "Kayserigaz"ın 80 faizi, ticarət və elektrik satışı şirkəti "EWE Enerji", enerji xidmətləri tədarükçüsü "Enervis" və telekommunikasiya sektorunda fəaliyyət göstərən "Millenicom"un səhmlərinin də 100 faizi "SOCAR Türkiyə"yə keçib.

Baş icraçı direktor Avropa, Orta Şərq və Afrika bölgəsində son zamanlar reallaşdırılan neft emalı üzrə ən böyük layihələrdən biri olan və 2018-ci ildən istismara verilən STAR Neft Emalı Zavodunun 2021-ci ildəki fəaliyyəti və istehsalat uğurları barədə də geniş məlumat verdi. Qeyd edildi ki, Türkiyənin ilk Strateji İnvestisiya Təşviq Sertifikatına sahib olan bu müəssisənin ümumilikdə 6,3 milyard dollar olan layihə investisiya dəyərinin 3,3 milyard dolları layihə maliyyələşdirmə krediti hesabına təmin edilib. Zavodun istismar çevikliyini, səmərəliliyini və logistika qabiliyyətini daha da inkişaf etdirmək üçün həyata keçirilən əlavə investisiyalarla birlikdə ümumi investisiya məbləğinin 7 milyard dollar olacağı gözlənilir.




Hazırda təxminən 1150 nəfərin çalışdığı müəssisə Türkiyənin istehlak etdiyi neft məhsulları tələbatının təxminən 25 faizini ödəyir. İllik istehsal gücü 11 milyon ton xam neft emal həcmi olan STAR NEZ-in dizel və naftadan əlavə, Türkiyənin indiki tələbatının əhəmiyyətli komponentlərindən olan təyyarə yanacağı və LPG kimi neft məhsulları da istehsal edir.

Gündəlik 35 min kubmetr xam neft işləmə qabiliyyətinə malik olan neft emalı zavodunun saxlama tutumu 2020 -ci ildə yeni məhsul çənləri layihəsinin tamamlanması ilə 1,9 milyon kubmetrə çatdırılıb. Səmərəliliyi və əməliyyat rahatlığını artırmaq üçün əlavə saxlanc yerlərinin təmin edilməsinə təxminən 600 milyon dollar investisiya yatırılıb. Bu investisiyalar başa çatdıqda STAR NEZ-in anbar tutumu 1,6 milyon kubmetrdən 2,2 milyon kubmetrə qədər artacaq. Bu həcm ildə 11 milyon ton neft emal edən bir neftayırma zavodu üçün ideal ölçüdür. Belə olan halda zavodun xammal qaynağı çeşidliliyi yaranacaq. Bu layihələrdən birinin bu il, digərinin isə 2022-ci ildə tamamlanması nəzərdə tutulur.

İlin uğurlu xəbərlərindən biri də STAR NEZ-in İstanbul Sənaye Palatasının (İSO) türk sənaye sektorunu qiymətləndirən "Türkiyənin 500 ən böyük sənaye müəssisəsi – 2020" araşdırmasında Türkiyənin ən böyük 6-cı sənaye müəssisəsi adını almasıdır. Bununla yanaşı, istismara başlayandan indiyədək performansını davamlı olaraq artırmağa səy göstərən zavod 2020 -ci ildə 10,3 milyon ton istehsal və toplam 24 milyard TL satış ilə Ege bölgəsinin 100 ən böyük sənaye müəssisəsi arasında birinci yeri tutub.

Təbii ki, jurnalistləri maraqlandıran suallardan biri də sənaye nəhənginin COVID–19 pandemiyası dövründə tam istehsal gücü ilə işləyib-işləməməsi idi. Baş icraçı direktor bildirdi ki, zavod burada quraşdırılan ən müasir texnologiya infrastrukturu və əməliyyat rahatlığı sayəsində istehsal planlarını pandemiya dövründəki dəyişikliklərə çevik şəkildə uyğunlaşdıra bilib. Məhz bunun sayəsində pandemiya dövründə zavodda 1,6 milyon ton təyyarə yanacağı istehsal gücünü sürətlə dizel yanacağına çevirib və bazarda əhəmiyyətli bir rəqabət üstünlüyü qazanıb.

Bu gün STAR NEZ-in istehsal etdiyi, illik təxminən 1,6 milyon ton nafta ilə Türkiyənin ilk və yeganə inteqrasiya olunmuş neft-kimya istehsalçısı "Petkim" neft-kimya kompleksinin xammal ehtiyacını, demək olar ki, tam ödəyir. Zavod qabaqcıl texnologiya və "Petkim" ilə birləşmiş quruluşu sayəsində COVID-19 pandemiyası müddətində fasiləsiz işləyərək yüksək istehsal həcmini davam etdirib. Məsələn, ötən ilin 9 ayında Şərqi Aralıq dənizindəki neft emalı zavodlarının orta tutum istifadə nisbəti 86 faiz olduğu halda, STAR NEZ-in emal gücünün istifadə nisbəti 98,9 faiz təşkil edib.

"SOCAR Türkiyə"nin baş icraçı direktorunun sadaladığı uğurlar sırasında, başa çatmaqda olan 2021-ci ildə STAR NEZ-in Dünya İqtisadi Forumu (WEF) tərəfindən Sənaye 4.0 texnologiyalarını istehsalatda ən yaxşı tətbiq edən müəssisələrin qəbul edildiyi "Global Lighthouse Network"a daxil olmasını eşitmək də azərbaycanlı olaraq bizi çox sevindirdi. Çünki STAR NEZ 2021-ci ildə Türkiyədən seçilən yeganə şirkət olmaqla yanaşı, həm də dünyada bu mükafata layiq görülən ilk neft emalı zavodudur.

Dünya iqtisadiyyatının iki ildən artıq davam edən pandemiya səbəbindən tənəzzülə uğradığı bir dönəmdə "SOCAR Türkiyə"nin 2021-ci ildə qazandığı uğurlar təkcə baş icraçı direktor Zaur Qəhrəmanovun sadaladıqları ilə bitmirdi. Media tur çərçivəsində İzmirə səfərimiz və Türkiyənin üçüncü böyük şəhərinin Əliağa yarımadasındakı "SOCAR Türkiyə"yə məxsus sənaye müəssisələri ilə yaxından tanışlığımız, onların fəaliyyətilə bağlı da bir çox məlumatlar əldə etməyimiz Azərbaycanın qardaş ölkədəki sənaye nəhəngi haqqında daha dolğun təsəvvür formalaşdırdı.

***İlqar RÜSTƏMOV,***
***"Xalq qəzeti"***
***Bakı – İstanbul – İzmir – Bakı***